*Mürsəlov Natiq.Azərbaycan Respublikasının konstitusiyası kitabxana işi sahəsində dövlət siyasətinin əsas mənbəyidir // Elmi əsərlər,2020,2(11),iyul-dekabr, s.84-89.*

UOT: 342 (025.4)

**Mürsəlov Natiq,**
*doktorant*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç.,26*
natiq.doktorant@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI KİTABXANA İŞİ SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS MƏNBƏYİDİR

**Açar sözlər:** *yaradıcılıq azadlığı, əqli mülkiyyət, mədəniyyət hüququ, kitabxanaçılıq təhsili.*

**Giriş.** *Azərbaycanda vətəndaş cəmiyyətinin aktual problemlərindən biri kitabxana işinin hüquqi tənzimlənmə müxanizmlərinin dəqiq müəyyənləşdirilməsi və müasir dövrün tələbləri səviyyəsində inkişaf etdirilməsidir. Müstəqillik illərində ölkənin kitabxana işi sahəsində dövlət siyasətinin hüquqi bazası olan milli qanunvericilik sisteminin öyrənilməsi vacib əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu sistemin özünəməxsus cəhətlərinin araşdırılması ölkə kitabxanaşünaslığının prioritet vəzifələrindən biri kimi diqqəti cəlb edir. Qeyd olunan mühüm problemə həsr edilmiş bu tədqiqatın məqsədi məhz Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətinin əsas hüquqi mənbəyi olan konstitusiyada vətəndaşların təsbit olunmuş hüquqlarının hərtərəfli elmi təhlilini verməkdir. Araşdırma işində Azərbaycan Respublikasının Konstitusiyasında kitabxana işi ilə bağlı təsbit edilmiş müvafiq müddəaların təhlili nəzəri və təcrübi baxımdan hüquqşünaslıq və kitabxanaşünaslığın elmi metodologiyasına əsaslanır.*

Doğrudur, bugünə kimi milli kitabxanaşünaslıqda bir çox alimin elmi-tədqiqat əsərlərində bu məsələyə cüzi də olsa toxunulub. Bunlardan görkəmli kitabxanaşünas-alim, tarix üzrə elmlər doktoru, Bakı Dövlət Universitetinin (BDU) fəxri professoru Abuzər Xələfovun “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” monoqrafiyasını [3], BDU-nun Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının professoru, tarix üzrə elmlər doktoru Xəlil İsmayılovun “Kitabxana işinin təşkili və idarə olunması” dərs vəsaitini [4] və Odlar Yurdu Universitetinin professoru Sabir Allahverdiyevin “Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları” dərsliyini [1] xüsusi qeyd etmək yerinə düşər. Lakin bütün bu sadalanan qiymətli tədqiqatlara baxmayaraq kitabxana işi ilə bağlı vətəndaşların konstitusion hüquqları ilk dəfə məhz bu məqalədə elmi-nəzəri cəhətdən müfəssəl şəkildə təhlil olunur.

Hüquqi mənbələrdə göstərilir ki, “konstitusiya” sözü latınca “constitutio” ifadəsindən olub, quruluş (təsisat, qurma) mənasını bildirir. Müasir anlamda konstitusiya ilk dəfə olaraq 1787-ci ildə ABŞ-da, daha sonra 1791-ci ildə Fransada və Polşada təsdiqlənib [1]. Azərbaycanda konstitusiya sovet hakimiyyəti illərində 1921, 1937, 1978-ci ildə, müstəqillik dövründə isə 12 noyabr 1995-ci il tarixində qəbul olunub. Referendum (ümumxalq səsverməsi) yolu ilə qəbul edilmiş konstitusiyaya müxtəlif vaxtlarda 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da müvafiq əlavə və dəyişikliklər də olunub.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası (bundan sonra - konstitusiya) ölkənin ən ali qanunudur və yüksək hüquqi qüvvəyə malik sənəddir. O, ölkənin milli

qanunvericilik sisteminin əsasını təşkil edir. Yalnız dövlətin təşkilini deyil, həm də qeyri-dövlət sahələrini - sosial-iqtisadi quruluşun əsaslarını, cəmiyyətin mədəni həyatını, insan və vətəndaşın hüquq, azadlıq və vəzifələrini əhatə edən konstitusiya 5 bölmə, 12 fəsil, 158 maddədən ibarətdir. Müxtəlif ictimai münasibətlərdə olduğu kimi kitabxana işinin hüquqi tənzimlənməsinin mənbəyini də məhz vətəndaşların konstitusiyada nəzərdə tutulmuş əsas hüquq və azadlıqları təşkil edir. Əlbəttə ki, kitabxana işinin qanunvericilik bazasına digər hüquqi aktlar da (prezidentin fərmanları, Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının təlimatları və s.) daxildir. Lakin konstitusiya öz statusuna görə kitabxana işinin hüquqi tənzimlənməsində ən üstün mövqeyə malik qanun olduğundan qəbul edilən həm qanunlar, həm də qanunqüvvəli digər hüquqi sənədlər konstitusiyaya uyğun gəlməli, onunla ziddiyyət təşkil etməməlidir.

Konstitusiyanın mahiyyət etibarilə kitabxana işi ilə bağlı müddəaları əks etdirən və araşdırmaya cəlb etdiyimiz ikinci bölməsi “Əsas hüquqlar, azadlıqlar və vəzifələr” adlanır. Bölmənin “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” adlı üçüncü fəslinə daxil edilmiş həmin maddələr “Mülkiyyət hüququ”, “Əqli mülkiyyət hüququ”, “Mədəniyyət hüququ” və “Təhsil hüququ” adı ilə göstərilir.

Mülkiyyət hüququ kitabxana işinin iqtisadi hüquqları sırasına daxil olan əsas hüquq hesab olunur. Çünki, kitabxananın mülkiyyəti onun iqtisadi-təsərrüfat həyatının özəyini təşkil edir. Mülkiyyət kitabxana işində geniş ictimai-siyasi məzmuna malik olan münasibətdir. Mülkiyyət hüququ ilə əlaqədar konstitusiyada qeyd olunur: *“Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir”* [2]. Deməli, kitabxana işinin təməli məhz mülkiyyət (mülkiyyət münasibətləri) üzərində qurulub. Kitabxana işi sahəsində mülkiyyət hüququnun (mülkiyyətin) mülkiyyətçisi (subyekti) qismində Azərbaycan Respublikası (dövlət) və hüquqi şəxs (kitabxanalar) çıxış edir.

Kitabxana işində mülkiyyət hüququ mülkiyyətçiyə imkan verir ki, o, özünə məxsus olan əşyaya (əmlaka) sahiblik etsin, ondan istifadə etmək imkanına malik olsun və ona dair sərəncam verə bilsin. Məsələn, *“Azərbaycan Respublikasının milli-mədəni sərvətlər reyestrinə daxil olmayan çap məhsulları və digər materiallar müəyyən olunmuş qaydada bir kitabxanadan digərinə əvəzsiz verilə bilər”* [5]. Diqqətəlayiqdir ki, konstitusiyada ifadə olunan bu norma mülkiyyətçilər vasitəsilə kitabxana işində ictimai münasibətlərin iştirakçısı olan vətəndaşlara müxtəlif hüquqi imkanlar yaradır. Məsələn, *“Hər kəsin öz yaradıcılıq fəaliyyətinin nəticələrinə və qanuni əldə etdiyi mədəniyyət məhsullarına mülkiyyət hüququ vardır”* [6]. Şübhəsiz ki, kitabxana işində mülkiyyət hüququ kitabxananın əmlakı barəsində və onunla bağlı olaraq yaranan sosial-iqtisadi münasibətdir. Bu münasibətin bir tərəfində kitabxana işinin mülkiyyətçisi, digər tərəfində isə cəmiyyət üzvləri (“hamı və hər kəs”) dayanır. Deməli, kitabxana işində mülkiyyət münasibətləri də məhz onlar arasında formalaşır.

Milli Məclisin 1998-ci il 29 dekabr tarixli plenar iclasında qəbul edilmiş “Kitabxana işi haqqında” Azərbaycan Respublikasının Qanuna əsasən Dövlət Kitabxana Fondu dövlətin mülkiyyəti hesab olunur. Mülkiyyətçi olaraq dövlətin sahib olduğu bu sənəd ehtiyatları fondu prinsip etibarilə informasiya-axtarış sistemi ilə təchiz olunmuş, qarşılıqlı komplektləşdirilən, sərbəst istifadə imkanlarına malik, depozitar mühafizə və mübadilə əsasında fəaliyyət göstərən kitabxanaların fondlarının məcmusundan ibarətdir. Qanunvericiləyə görə hüquqi şəxs qismində müxtəlif kitabxanaların öz mülkiyyətləri ilə əlaqədar bəzi hüquqları vardır. Məsələn, kitabxanalar fondlarında saxlanılan ideoloji və məzmun

cəhətdən köhnəlmiş və ya istifadəsi yararsız hala düşmüş sənəd-informasiya daşıyıcılarını qanunvericilikdə müəyyən olunmuş qaydada fonddan çıxarmaq hüququna malikdirlər.

Beləliklə, konstitusiyanın 29-cu maddəsində vətəndaşların mülkiyyət hüququnun təsbitini kitabxana işində və onun inkişafında dövlət siyasətinə mühüm təsir göstərən hüquqi hadisə kimi dəyərləndirilməlidir.

Mülkiyyətin iki xüsusi növündən birini təşkil edən əqli mülkiyyət obyektlərinə insanın yaradıcılıq fəaliyyətinin nəticələri (qeyri-maddi və mənəvi nemətlər) daxildir. Aydındır ki, əqli mülkiyyət obyektlərini (elm, ədəbiyyat və incəsənət əsərləri, ixtiralar və yaradıcılıq fəaliyyətinin digər nəticələri) yaradan şəxsin (müəllifin) həmin obyektlərin istifadəsi və qorunması ilə bağlı olaraq müəyyən hüquqları əmələ gəlir. Bununla bağlı konstitusiyanın 30-cu maddəsində qeyd olunur: *"Hər kəsin əqli mülkiyyət hüququ vardır. Müəlliflik hüququ, ixtiraçılıq hüququ və əqli mülkiyyət hüququnun başqa növləri qanunla qorunur"* [2]. Deməli, əqli mülkiyyət hüququ məhz bu obyektlər barəsində və onlarla əlaqədar olaraq yaranan ictimai münasibətləri tənzimləyir.

Kitabxana işi birbaşa olaraq əqli mülkiyyət obyektləri ilə bağlı ictimai münasibətlərin tənzimləndiyi mühüm sosial institut kimi müəlliflərin hüquqlarının qorunmasında vacib rol oynayır. Belə ki, *"Kitabxana fondunun tərkibinə daxil olan obyektlərdən istifadə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirilir"* [5]. Əqli mülkiyyət qanunvericiliyinin hüquq normaları kitabxanalara qazanc əldə etmək məqsədi olmadan və müəllifin razılığını almadan, ona heç bir qonorar ödəmədən, lakin istifadə olunan əsərin müəllifinin adını, götürülmə mənbəyini mütləq göstərmək şərtilə əsərin müəyyən məqsəd üçün lazım olan həcmdə reprosurətini çıxarmaq imkanı verir. Məsələn, digər kitabxana fondunda itmiş və ya istifadəyə yararsız vəziyyətə düşmüş əsərin nüsxəsinin dəyişdirilməsi məqsədilə adi şəraitdə yeni nüsxənin alınması başqa yolla mümkün olmazsa, əsərin reprosurətinin çıxarılıb həmin kitabxanaya verilməsinə icazə vardır. Burada reprosurətçıxarma dedikdə, əsərin orijinalının və ya nüsxəsinin fotosurətçıxarma yolu ilə və ya nəşretmə istisna olmaqla, digər texniki vasitələrin köməyi ilə böyüdülmüş, yaxud kiçildilmiş ölçüdə faksimilesinin çıxarılması başa düşülür.

Beləliklə, konstitusiyada əqli mülkiyyət hüququnun təsbit olunması ilə kitabxanaların qarşısında müəlliflərin hüquqlarını lazımi səviyyədə qorumaq vəzifəsi qoyulub. Əlbəttə ki, kitabxanaların bu vəzifəni uğurla yerinə yetirməsi məqsədilə dövlət tərəfindən müvafiq addımlar atılır və gələcəkdə də mühüm işlərin görüləcəyi heç bir şübhə doğurmur.

Azərbaycan Respublikası vətəndaşlarının kitabxana işi ilə bağlı konstitusiyada təsbit edilmiş hüquqları içərisində mədəniyyət hüququ mühüm əhəmiyyət kəsb edir. Sənəddə qeyd olunur: *"Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır"* [2]. Ümumiyyətlə, mədəniyyət hüququ çoxşaxəli və mürəkkəb bir anlayışdır. Bu hüquq vətəndaşların öz mədəni-mənəvi tələbatını ödəmək məqsədilə maddi-estetik və digər mənəvi dəyərlərdən, o cümlədən kitabxana fondlarından azad və maneəsiz istifadə etməklə həmin dəyərləri mənimsəmək imkanı verir. Mədəniyyət hüququ həmçinin vətəndaşların kitabxana fəaliyyəti ilə məşğul olmağına müvafiq şəraitin formalaşmasını təmin edir. Kitabxana mədəniyyət müəssisəsi olaraq zəngin sənəd-informasiya ehtiyatları ilə insanların mənəvi potensialının yüksəldilməsində əvəzsiz rol oynayır və qanunvericiliyə əsasən onun fondu milli mədəni arxiv, həm də milli mədəni irs nümunələri sırasına aid edilir. Şübhəsiz ki, kitabxana fəaliyyəti mədəniyyət sahəsində fəaliyyət istiqamətlərindən biri kimi vətəndaşların maraqlarına xidmət etməklə onların mədəni həyatda iştirakına zəmin yaradır. Kitabxana fəaliyyəti dedikdə, istifadəçilərin infor-

masiya toplamaq hüququnu reallaşdırmaq, kitabxananın sənəd-informasiya resurslarına sərbəst çıxışı təmin etmək və tələbatlarını operativ şəkildə ödəmək məqsədilə həyata keçirilən fəaliyyət başa düşülür.

Konstitusiyanın bu müddəasına əsasən qeyd etmək olar ki, hər kəs mədəni sərvət kimi kitabxanalardan bərabər hüquqlarla istifadə edir və dövlət buna təminat verir. Bu səbəbdən, Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasəti iki mühüm prinsipə əsasən həyata keçirilir: *"kitabxanalarda mühafizə olunan mədəni sərvətlərdən və informasiya vasitələrindən istifadənin hamı üçün açıq olması, milli sərvət olan kitabxanalara dövlət qayğısı, onların fondlarının toxunulmazlığı və üstün maliyyələşdirilməsi"* [5]. Təqdirəlayiqdir ki, hazırda hökumət tərəfindən xüsusilə də, uşaq və gənclərin kitabxananın mədəni sərvətlərindən bəhrələnmələrini stimullaşdıran müxtəlif layihələr icra olunur.

Beləliklə, ali hüquqi sənədin 40-cı maddəsində təsbit edilmiş vətəndaşların mədəniyyət hüququna əsasən dövlət öz siyasəti ilə hər kəsin kitabxana işində yaradıcılıq fəaliyyətini seçmək, kitabxana sərvətlərinin yaradılmasında və kitabxana fondlarından bərabər istifadə etməkdə tam sərbəstlik imkanını təmin edir. Həmçinin, milli mədəni irs hesab olunan kitabxana fondlarından vətəndaşların sərbəst istifadə etmək hüquqlarını daha səmərəli və operativ təmin etmək məqsədilə bu sahədə müvafiq dövlət proqramları hazırlayır və uğurla həyata keçirir.

Konstitusiyada əksini tapan vətəndaşların təhsil hüququnu mütəxəssislər insanın vacib sosial-mədəni hüquqlarından biri hesab edir. Bu haqda əsas qanunda deyilir: *"Hər bir vətəndaşın təhsil almaq hüququ vardır"* [2]. Qeyd olunan hüquqi normanın tələbinə əsasən kitabxanada çalışan hər bir əməkdaş öz təhsil səviyyəsini artırmaq və təkmilləşdirmək imkanı qazanır. Sənədə əsasən dövlət ölkənin təhsil sisteminə ciddi nəzarət edir və maddi imkanından asılı olmayaraq təhsilini davam etdirmək üçün istedadlı şəxslərə lazımi şərait yaradır. Deməli, dövlət məhz konstitusiyanın bu müddəasına əsasən yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlayan, onların peşə səviyyəsinin artırılmasını həyata keçirən təhsil müəssisələrinin yaradılması və fəaliyyətini təşkil edir. Məsələn, hökumət dövlət büdcəsindən maliyyələşdirilməklə müvafiq sayda hər il sifariş əsasında BDU və Naxçıvan Dövlət Universitetində "Kitabxanaçılıq və informasiya fəaliyyəti" ixtisası üzrə bakalavr hazırlığını təmin edir. Doğrudur, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, həm də Naxçıvan Müəllimlər İnstitutunda bu ixtisas üzrə kadr hazırlığı vətəndaşların şəxsi vəsaiti hesabına ödənişli əsaslarla aparılsa da, həmin tələbələrdən sosial baxımdan həssas ailə qrupuna daxil olanların təhsil haqqı dövlət tərəfindən qarşılanır. Bundan əlavə, doktorantlıq və dissertantlıq yolu ilə "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" ixtisasında filologiya, pedaqogika, tarix və ya texnika üzrə alimlik dərəcəsi almaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və BDU-da fəlsəfə və elmlər doktoru proqramına uyğun dövlət sifarişi əsasında kadr hazırlığı da müvəffəqiyyətlə həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən ölkəmizdə ümumi təhsil prosesinin iştirakçıları olan təhsilverənlərdən biri kimi müəssisənin kitabxanaçılarının geniş hüquqları vardır. Belə ki, onlar normal iş şəraiti, müasir standartlara cavab verən texnologiyalarla təmin olunmaq, təhsil prosesinin təşkilində fəal iştirak etmək, ixtisasını artırmaq, staj keçmək, ixtisas və elmi dərəcəsini yüksəltmək, müəyyən edilmiş hallarda, eləcə də müvafiq qaydada mükafatlandırılmaq və təltif olunmaq hüququna malikdirlər.

Bununla paralel olaraq, təhsil müəssisələrinin təhsilalanlarının hüquq bərabərlikləri və təhsil müəssisəsinin mövcud infrastrukturuna daxil olan kitabxanalardan istifadə etmək imkanları məhz konstitusiyanın 42-ci maddəsinə uyğun müəyyən edilir.

Beləliklə, Azərbaycan dövləti təhsil sisteminin iştirakçısı olaraq kitabxana və kitabxanaçılar vasitəsilə vətəndaşların təhsil hüququnu təmin etməklə öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə, insanların hüquq və azadlıqlarına hörmətlə yanaşan, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən şəxsiyyət yetişdirmək məqsədində siyasətini uğurla davam etdirir.

Nəticə olaraq belə bir qənaətə gəlmək mümkündür ki, suveren Azərbaycan Respublikasının ən ali qanununda vətəndaşların kitabxana işi ilə bağlı təsbit olunmuş hüquqları bu sahədə dövlət siyasətinin əsas mənbəyi kimi ölkədə kitabxana-informasiya fəaliyyətinin modernləşməsi üçün mühüm imkanlar yaradır. Şübhəsiz ki, kitabxana işinə dair növbəti illərdə qəbul ediləcək müxtəlif qanunvericilik aktlarının konstitusiyaya əsaslanması bu sahənin daha dinamik inkişafına təkan verməklə bərabər onun hüquqi tənzimlənməsində vacib rol oynacaqdır.

**Ədəbiyyat:**

1. Allahverdiyev S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları: dərslik. - Bakı: Digesta, 2006, 348 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası: [Elektron resurs] / 12 noyabr 1995-ci ildə qəbul edilmişdir. // Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. - URL: http://www.e-qanun.az/framework/897
3. Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. - Bakı, 2006, 276, 311 s.
4. İsmayılov X. Kitabxana işinin təşkili və idarə olunması. -Bakı, 2010, 305 s.
5. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / 29 dekabr 1998-ci ildə qəbul edilmişdir (30 aprel 2002-ci il tarixində olan dəyişiklik və əlavələr). - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. - URL: http://www.e-qanun.az/framework/5041
6. Mədəniyyət haqqında Azərbaycan Respublikasının Qanunu: [Elektron resurs] / 21 dekabr 2012-ci ildə qəbul edilmişdir (6 oktyabr 2015-ci il tarixində olan dəyişiklik və əlavələr). - Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. - URL: http://www.e-qanun.az/framework/25303

***Мурсалов Натиг***

## КОНСТИТУЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ - ГЛАВНЫЙ ИСТОЧНИК ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ В ОБЛАСТИ БИБЛИОТЕЧНОГО ДЕЛА

**Резюме**

В статье освещены итоги научного анализа основ гражданских прав, закрепленных в Конституции Азербайджанской Республики, указывающих на основные принципы государственной политики в области библиотечного дела. В проведенном исследовании впервые широко изучаются с научной и теоретической точки зрения такие основные принципы прав граждан как «Право собственности», «Право на интеллектуальную собственность», «Право на культуру» и «Право на образование». Анализ этих положений с теоретической и научно-практической точки зрения основан на научной методологии юриспруденции и библиотековедения.

**Ключевые слова:** *свобода творчества, интеллектуальная собственность, право на культуру, библиотечное образование.*

***Mursalov Natig***

## THE CONSTITUTION OF THE REPUBLIC OF AZERBAIJAN IS THE MAIN SOURCE OF STATE POLICY IN THE FIELD OF LIBRARY BUSINESS

**Summary**

The article highlights the results of the scientific analysis of the foundations of civil rights, enshrined in the Constitution of the Republic of Azerbaijan, indicating the basic principles of state policy in the field of library affairs.In this study, for the first time, from a scientific and theoretical point of view, such basic principles of citizens' rights as the "Right to Property", "The Right to Intellectual Property", "The Right to Culture" and "The Right to Education" are widely studied. The analysis of these provisions from a theoretical and scientific-practical point of view is based on the scientific methodology of jurisprudence and bibliothecology.

**Key words:** *freedom of creativity, intellectual property, the right to culture, library education.*

*Redaksiyaya daxil olma tarixi: 17.11.2019*
*Çapa qəbul olunma tarixi: 27.11.2019*

*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nadir İsmayılov tərəfindən çapa tövsiyə edilmişdir.*